A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I N I N

M A L İ Y Y Ə B A Z A R L A R I N A N Ə Z A R Ə T P A L A T A S I

# QİYMƏTLİ KAĞIZLAR BAZARININ RÜBLÜK GÖSTƏRİCİLƏRİ

*30 iyun 2017-ci il tarixinə*

**Bakı – 2017**

# Qiymətli kağızlar bazarının ümumi icmalı

2017-ci ilin birinci yarım ili ərzində qiymətli kağızlar bazarı ümumilikdə azalsa da, ayrı-ayrı bazar seqmentlərində artım müşahidə edilmişdir. Belə ki, hesabat dövrü ərzində qiymətli kağızların təkrar bazarı 54% artaraq 2,975 milyard manatı ötmüşdür. Korporativ qiymətli kağızlar bazarının 64% azalması fonunda, dövlət qiymətli kağızlar bazarı 4,3 dəfə artmışdır. 2017-ci ilin yanvar-iyun ayları ərzində qiymətli kağızlar bazarı keçən ilin müvafiq dövrü ilə müqayisədə 26% azalaraq 5,230 milyard manat təşkil etmişdir.

Ümumi göstəricilər

| | 2017 | | 2016 | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | yanvar - iyun | | yanvar - iyun | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **1 430** | **1 904 387 576** | **1 342** | **5 240 534 751** | **-64%** | **36%** |
| İlkin bazar | 95 | 1 176 613 000 | 135 | 4 954 166 440 | -76% | |
| Təkrar bazar | 1 335 | 727 774 576 | 1 207 | 286 368 311 | 2,5 dəfə | |
| **Dövlət qiymətli kağızları** | **310** | **1 106 388 702** | **107** | **259 173 678** | **4,3 dəfə** | **21%** |
| İlkin bazar | 266 | 1 077 507 510 | 74 | 166 195 805 | 6,5 dəfə | |
| Təkrar bazar | 44 | 28 881 192 | 33 | 92 977 874 | -69% | |
| **Törəmə maliyyə alətləri** | **36 723** | **2 207 563 336** | **20 838** | **1 552 826 372** | **42%** | **42%** |
| **Repo/əks-repo** | **17** | **11 577 452** | **0** | **0** | | **1%** |
| **Qiymətli kağızlar bazarı** | **38 480** | **5 229 917 066** | **22 287** | **7 052 534 802** | **-26%** | **100%** |
| İlkin bazar | 361 | 2 254 120 510 | 209 | 5 120 362 245 | -56% | 43% |
| Təkrar bazar | 38 119 | 2 975 796 556 | 22 078 | 1 932 172 557 | 54% | 57% |









# Korporativ qiymətli kağızlar

Hesabat dövrü ərzində real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əməliyyatların həcminin 83% artaraq 1,047 milyard manat təşkil etməsinə səbəb olmuşdur. Ümumilikdə səhmlərlə ilkin bazarda bağlanan əqdlərin məbləği əvvəlki hesabat dövrü ilə müqayisədə 2,9 dəfə artaraq 983 milyon manata çatmışdır.

Korporativ qiymətli kağızlar

| | 2017 yanvar - iyun | | 2016 yanvar - iyun | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **1 430** | **1 904 387 576** | **1 341** | **5 240 534 751** | **-64%** | **100%** |
| **Səhmlər** | **937** | **1 047 664 703** | **1 256** | **571 061 171** | **83%** | **55%** |
| Səhm (ilkin bazar) | 31 | 982 984 205 | 90 | 335 182 767 | **2,9 dəfə** | |
| Səhm (təkrar bazar) | 906 | 64 680 498 | 1 166 | 235 878 404 | **-41%** | |
| **Korporativ istiqrazlar** | **493** | **856 722 873** | **85** | **4 669 473 580** | **-82%** | **45%** |
| İlkin bazar (manatla) | 38 | 126 737 100 | 19 | 4 601 540 000 | **-97%** | |
| İlkin bazar (xarici valyutada) | 26 | 66 891 695 | 26 | 17 443 674 | **3,8 dəfə** | |
| Təkrar bazar (manatla) | 24 | 429 950 516 | 27 | 43 997 592 | **9,8 dəfə** | |
| Təkrar bazar (xarici valyutada) | 405 | 233 143 563 | 13 | 6 492 314 | **36 dəfə** | |













# Dövlət qiymətli kağızları

Hesabat dövrü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən manata olan təzyiqin azaldılması məqsədilə həyata keçirilmiş not buraxılışları dövlət qiymətli kağızları bazarında əməliyyatların həcminin artım dinamikasını müəyyən etmişdir.

| Dövlət qiymətli kağızları | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 yanvar - iyun | | 2016 yanvar - iyun | | məbləğ üzrə fərq | bazar payı (%) |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Dövlət qiymətli kağızları** | **310** | **1 106 388 702** | **107** | **259 173 679** | **4,3 dəfə** | **100%** |
| **Dövlət istiqrazları** | **209** | **330 154 043** | **107** | **259 173 679** | **27%** | **30%** |
| İlkin bazar | 165 | 301 272 851 | 74 | 166 195 805 | 81% | |
| Təkrar bazar | 44 | 28 881 192 | 33 | 92 977 874 | -69% | |
| **Mərkəzi Bankın notları** | **101** | **776 234 659** | **0** | **0** | | **70%** |
| İlkin bazar | 101 | 776 234 659 | 0 | 0 | | |
| Təkrar bazar | 0 | 0 | 0 | 0 | | |




Hesabat dövründə dövlət qiymətli kağızları bazarında əqdlərin həcmi ötən illə müqayisədə 4,3 dəfə artaraq 1,106 milyard manat təşkil etmişdir. Bunun 776 milyon manatını Mərkəzi Bankın notları ilə ilkin bazarda bağlanan əqdlər təşkil etmişdir. Dövr ərzində ümumi məbləği 330 milyon manatdan artıq olan qısa və ortamüddətli dövlət istiqrazları yerləşdirilmişdir. Qısamüddətli dövlət istiqrazları üzrə orta çəkili gəlirlilik 15,93% təşkil etmişdir. Dövlət istiqrazları ilə təkrar bazar əqdlərinin məbləği 28,9 milyon manat olmuşdur.

## Törəmə maliyyə alətləri bazarı

Hesabat dövrü ərzində Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 2,020 milyard manat olan valyuta əsaslı və ümumi dəyəri 188 milyon manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilmişdir. Ümumilikdə törəmə maliyyə alətləri bazarının ümumi həcmi 2,207 milyard manat olmuş və bazarda keçən ilin müvafiq dövrü ilə müqayisədə 42% artım müşahidə edilmişdir.

| Törəmə maliyyə alətləri bazarı | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | | 2016 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
| | yanvar - iyun | | yanvar - iyun | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Törəmə maliyyə alətləri** | **36 723** | **2 207 563 336** | **20 838** | **1 552 826 372** | **42%** | **100%** |
| Əmtəə əsaslı fərq müq. | 3 684 | 187 679 456 | 2 535 | 44 089 183 | **4,3 dəfə** | 9% |
| Valyuta əsaslı fərq müq. | 33 039 | 2 019 883 880 | 18 303 | 1 508 737 189 | **34%** | 91% |







# Repo və əks-repo əməliyyatları

Hesabat dövründə qiymətli kağızlarla keçirilən repo əməliyyatlarının ümumi məbləği 11,6 milyon manat olmuşdur. Bunun 85%-ini (9,9 milyon manat) dövlət istiqrazları ilə olan 15 repo əməliyyatı təşkil etmişdir. Korporativ istiqrazlarla 1,7 milyon manat məbləğində 2 repo əməliyyatı keçirilmişdir.

| Repo və əks-repo əməliyyatları | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | | 2016 | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
| | yanvar - iyun | | yanvar – iyun | | | |
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Repo/əks-repo** | **17** | **11 577 452** | **0** | **0** | | **100%** |
| Korporativ istiqrazlar ilə repo | 2 | 1 725 767 | **0** | **0** | | 15% |
| Dövlət istiqrazları ilə repo | 15 | 9 851 685 | **0** | **0** | | 85% |
| Mərkəzi Bankın notları ilə repo | 0 | 0 | **0** | **0** | | 0% |